BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ

*№4 Humanitar elmlər seriyası 2015*

UOT 5717.01

# QƏRİB ƏDƏBİ CƏRƏYANI VƏ ORXAN VƏLININ ILK ŞEIRLƏRI

**G.Q.HƏSƏNOVA**
***Bakı Dövlət Universiteti***
***hasanovagulustan@gmail.com***

*Məqalədə XX əsrin 40-cı illərinə məxsus Qərib Türk ədəbi məktəbi və onun yaradıcılarından olan Orxan Vəli Kanıkın ilk şeirləri haqqında qısa məlumat verilmişdir.*

**Açar sözlər:** Orxan Vəli, ədəbi məktəb, şeir

Türk şeiri əsrlərin bəxş etdiyi vərdişlə vəznsiz, qafiyəsiz düşünülməmişdir. Lakin, XIX əsrdən etibarən Qərbin təsiri altına düşən Türk poeziyası Fransız şairlərinin təsiri ilə vəzn və qafiyəyə bağlı olmayan sərbəst şeirlə tanış olmuşdur. 30-cu illərin sonlarında bir qrup gənc şair özlərindən öncəki şeirin qayda-qanunlarına qarşı çıxaraq Türk poeziyasına yeni şeir ənənəsi gətirmişlər. XX əsrin 40-cı illərində Türk poeziyasında silinməz iz buraxan ədəbiyyat hadisələrindən biri də Qərib ədəbi məktəbinin meydana gəlməsi olmuşdur. Qərib və yaxud, İkinci yeni adlanan bu cərəyan Türk ədəbiyyatının mühüm adlarından olan Orxan Vəli Kanık, Məlik Cövdət Anday və Oktay Rıfat Horozcunun forma və məzmun baxımından yeni şeirlərini çap etdirmələri ilə başlamış, Orxan Vəlinin 1945-ci ildə yalnız öz şeirlərindən ibarət "Garip" şeir kitabını çap etdirməsi ilə başa çatmışdır.

1940-cı illərin əvvəllərində Türk ədəbiyyatına nəzər salsaq görürük ki, artıq demokratik meyllər qüvvətlənmişdir. Bu dövrdə "Sərvəti Fünun oyanış" jurnalında çap olunmuş "köhnə nəslə açıq məktub" adlı məqalədə açıq aydın görünür ki, Sərvəti Fününçular bədii əsərin köhnə ənənələr çərçivəsindən çıxaraq, insan sevgisi və mənəviyyatını bütün dolğunluğu ilə əks etdirməsini istəyirdilər. Onların fikrincə köhnə nəsil real həyatdan bəhs etməyən əsərləri qiymətləndirirdilər. Bir çox gənc şairlər bu fikirlərlə tam razı idi.

"Qərib" şairləri köhnə şeirin dağılmasında, köhnə şeir anlayışına qarşı mübarizədə böyük işlər görmüşlər. Onlar şeiri yeniləşdirmiş, şeirin imkanlarını, formalarını genişləndirmişlər.

O dövrdə ülvi məhəbbət şairi Yahya Kamal şeirdə hegemon idi. Əhməd

Mühib Dranas, Əhməd Kutsi Tecər, Cahit Sıtkı Tarancı və başka bu kimi şairlər Fransız şeirinin təsiri ilə yazıb yaratmış, şeirdə yar həsrəti, ölüm haqqında fikirlər, tənhalıq, mehtablı gecələr, əyləncə məclisləri, qısqanclıq kimi mövzulara üstünlük vermişlər.

Xalqın dərdlərindən, ehtiyaclarından bəhs edən yox idi. Bir sözlə poeziya xalqdan uzaqlaşdırılmışdır.

Bunu nəzərə alan "Qərib" şairləri adi insanın həyatına, kədərinə, sevincinə, mübarizəsinə öz şeirlərində geniş yer ayıraraq Türk şeirinin inkişafında yeni mərhələ açmışdılar.

"Qərib" şairləri yalnız real həyatı təsvir etməklə kifayətlənmir, yazdıqlarını xalqın asan başa düşməsinə, qavramasına çalışırdılar. Ona görə də təmtəraqlı ifadələrdən, geniş təsvirlərdən qaçır, öz fikirlərini bir neçə misralıq şeirlə ifadə etməyə çalışır, mövzuya, mənaya üstünlük vermişlər.

Onlar çalışırdılar ki, öz qısa şeirləri ilə oxucuya təsir edə bilsinlər. Onların şüurunu oyandırsınlar. Onlar oxucunu özləri ilə birlikdə fikirləşməyə məcbur edirdilər. Orxan Vəlinin fikrincə, nəsrin və köhnə poeziyanın dili anlatma, izah etmək dili idi. Yeni poeziya isə izah etmir. Bu cəhət poeziyanı nəsrdən fərqləndirən minlərlə cəhətlərdən biridir.

Əslində Yeni Türk Şeirinin yaranmasında ilk addımı Nazim Hikmət atmışdır. 1920-ci ilin sonunda Nazim Hikmət yaradıcılığı ilə yeni şeirin əsası qoyulurdu. Nazim Hikmət şeiri həm formaca, həm də məzmunca dəyişdirmiş, həmçinin şeirə xalq obrazlarını daxil etmişdir. Bütün bunları nəzərə alaraq qeyd etmək lazımdır ki, Nazim Hikmət şeiri xalqa yaxınlaşdırmışdır.

Fikrimcə, Orxan Vəli bu ədəbi məktəbin banisi, qurucusudur. 1941-ci ildə Orxan Vəli Kanık, Məlik Cövdət Anday və Oktay Rıfat Horozcu birlikdə "Garip" adlı şeir kitabı çap etdirmişlər. Orxan Vəli kitabın önsözünü özü yazmış, şeir haqqında düşüncələrini açıqlamışdır. Bu önsöz əslində Qərib ədəbi məktəbinin manifesti kimi qəbul olunmuşdur. Hər zaman yenilik axtarışında olan, tədqiqatçı ruhlu şair Orxan Vəli vəfat etdikdən sonra Oktay Rıfat ilə Məlik Cövdətin biganəliyi diqqətdən yayınmır. Şeirdən teatr, roma və hekayə janrına keçən iki dost mövzu və dil baxımından da "Qərib"dən uzaqlaşmışlar. Mifologiya, həmçinin, yeni sözlərdən istifadə də bunun bariz nümunəsidir. Bununla belə nəticəyə gəlmək olar ki, Orxan Vəli "Qərib" ədəbi məktəbinin şah damarı, Məlik Cövdət və Oktay Rıfat isə dəstəkləyiciləri olmuşdur.

Məlik Cövdət öz əsərlərində Atatürk inqilablarına xeyli yer ayırmışdır. Oktay Rıfat ilə Orxan Vəlini birləşdirən cəhətlərdən biri də müasirləşməyə, mədəniləşməyə üstünlük vermələri olmuşdur.

Orxan Vəli dostu Muvaffak Sami Onata göndərdiyi məktublardan birində həyatını belə təsvir etmişdir:

"1914'te doğdum. 1 yaşında kurbağadan korktum. 9 yaşında okumaya, 10 yaşında yazmaya merak saldım. 13'te Oktay Rıfat'ı, 16'da Melih Cevdet'i tanıdım. 17 yaşında bara gittim. 18'de rakıya başladım. 19'dan sonra avarelik devrim başlar. 20 yaşından sonra da para kazanmasını ve sefalet çekmesini

öğrendim. 25'te başımdan bir otomobil kazası geçti. Çok aşık oldum. Hiç evlenmedim, şimdi askerim." [1]

Qərib şeirinin yaradıcısı Orxan Vəli müharibəni sevməsə də Birinci dünya müharibəsinin başladığı il, yəni, 1914-cü ilin 13 aprel tarixində İstanbulun Beykoz rayonuna bağlı Yalıköyü adlı yerde dünyaya gəlmişdir. Atası Mehmet Veli Kanık İzmir tüccarlarından Fehmi bəyin oğlu olmuşdur. Mehmet Veli musiqiçi olmuş, İzmir, Ankara və İstanbulda çalışmış, lakin, 1949-cu ildə İstanbul Radiosunda çalışarkən təqaüdə çıxmışdır. Beləliklə, Orxan Vəli həzin musiqinin duyulduğu çevrədə dünyaya gözlərini açmışdır. Təəssüf ki, Mehmet Veli oğlunun ölümündən sonra 1953-cü ildə gözlərini əbədi yummuşdur.

Anası Fatma Nigar 20 yaşındaykən Orxanı dünyaya gətirmiş, on il sonra 1962-ci ildə vəfat etmişdir. Fatma Nigar, Beykoz rayonunda taxta-şalban ticarəti ilə məşğul olan Hacı Əhməd bəyin ailəsindən idi. "Annem`e" şeirində Orxan Vəli anasını qarşı duyduğu həsrəti çox ustalıqla dilə gətirmişdir.

Orxan Vəlinin qardaşı Adnan Veli Türk mizah ədəbiyyatının önəmli adlarından biri idi. Bacısı Füruzan Yolyapan isə Orhan Velinin kitablarını çap etdirməklə məşğul olmuşdur.

Orxan Vəlinin uşaqlıq illəri İstanbulun Beykoz və Beşiktaş adlanan yerlərində keçmişdir. Məktəbin birinci sinfinə də məhz Beşiktaşın Akaretlerdə yerləşən məktəblərdən birində başlamışdır. Hal-hazırda, Orxan Vəlinin təhsil aldığı bu məktəbin yaxınlığında Beşiktaş Bələdiyyəsi tərəfindən Şairlər Parkı salınmışdır. Parkda çox gözəl mənzərə var, şairlərin heykəlləri, büstləri sanki bir-birilə söhbət edir.

Balaca Orxan bir il sonra ədəbiyyat ocağı sayılan Qalatasarayda yatılı məktəbə verilir. Dörd il bu məktəbdə təhsil alan Birinci il nəticələri daha yüksək olur, fransız dilinə çox böyük maraq göstərir və müəllimləri ondan çox razı qalır. Orxan Vəli idmana da çox böyük maraq göstərmiş, kiçik yaşlarından qardaşı Adnan Vəli və dostu Halim Şəfiqlə tez-tez top oynayarmış.

Orxan Vəli beş yaşında olarkən, dayəsi yemək hazırlayarkən ona mane olur və qolundan yanıq zədəsi alır. Uzun zaman müalicədən sonra sağalır.

Bildiyimiz kimi, 1923-cü ilin 13 oktyabrında Cümhuriyyətin əsas şəhəri Ankara olmuşdur. İstanbuldakı incəsənət birlikləri Ankaraya köçürülmüş, Orxan Vəlinin atasının çalışdığı "Mızıka-i Hümayun" orkestri "Cumhurbaşkanlığı Orkestrası" adını alır. Bununla əlaqədar Mehmet Vəli də Ankaraya köçür, lakin həyat yoldaşı və oğlu Orxanı yanına gətirmək arzusunda olur və buna nail olur. Balaca Orxan Gazi məktəbinin beşinci sinfini uğurla başa çatdırır və Ankara Yatılı Məktəbinə verilir. Orxan yay tətillərini babasının yanında Beykozda (İstanbul), qışı isə Yenişehirdə (Ankara) keçirərdi.

Orxan Vəlinin ədəbiyyata marağı ibtidai sinifdən başlamışdır. Məktəbdə təhsil alarkən yazdığı kiçik bir hekayə "Çocuk Dünyası" jurnalında çap olunmuşdur. Müəllimi Sədat bəyin Kiçik Orxandakı bu qabiliyyəti, istedadı

[1] Asım Bezirci, "Orhan Veli-yaşamı, kişiliği, sanatı, eserleri" İstanbul 1995, səh.13

görmüş və ona yol göstərmişdir. [Bax: 1] Yeddinci sinifdə oxuyarkən Oqtay Rıfatla tanış olmuş, iki ildən sonra isə Məlik Cövdət aralarına qatılmışdır. Məlik Cövdət xatirələrində yazırdı: o dönemde Orhan Veli "uzun boylu, ipince, sivilceli, durgun" bir delikanlıdır. "Ders dışı faaliyetlerden onu en çok çeken okul dergisi ile müsamere kolu"dur. Onunla tanışması da "bir müsamere sırasında Halkevi'nde olmuşdur.[2] Üç dost şeir yazır, məktəb jurnalında, səhnəciklərin hazırlanmasında çox fəal iştirak etmişdir. Kimin ağlına gələrdi ki, bu balaca oğlanlar gələcəkdə Türk poeziyasının parlaq simalarına çevriləcək.

Orxan Vəli ömrünün ən gözəl, ən məhsuldar anında gözlərini həyata əbədi yummuşdur. Yaşasaydı Türk poeziyasına yüzlərlə möhtəşəm əsər töhvə verəcəkdi.

Orxan Vəlinin yaradıcılığını dörd dövrə bölə bilərik.

1. İlk şeirlər
2. "Garip" dövrü
3. "Garip"dən sonrakı dövr
4. Yapraq jurnalı

Musiqiçi ailəsində böyüyən Orxan Vəli şeirə erkən yaşlarında başlamış, hətta məktəbdə təhsil alarkən müəllimlərinin diqqət mərkəzində olmuşdur. Cümhuriyyət dövrü Türk ədəbiyyatının ən vacib təmsilçiləri olan Əhməd Həmdi Tanpınar, Xəlil Vədat Fıratlı, Yahya Saim Sinanoğlu və Rıfkı Məlul Meriç o dövrdə Orxanın təhsil aldığı Ankara Məktəbində müəllim kimi fəaliyyət göstərmişlər. Adı çəkilən sənətkarlar arasında Əhməd Həmdi Tanpınar məktəli Orxana daha çox köməklik göstərmişdir.

Orxan Vəlinin məktəbdə oxuyarkən "Sesimiz" adlı məktəb jurnalında nəşr olunan hekayələrini saymasaq, ilk şeirləri "Varlık" jurnalında çap olunmuşdur. 1936-cı il dekabr buraxılışında Orxan Vəlinin şeirləri bu kiçik yazı ilə başlamışdır:

"Varlık'ın şiir kadrosu yeni ve kuvvetli genç imzalarla zenginleşmektedir. Aşağıda dört şiirini okuyacağınız Orhan Veli, şimdiye kadar yazılarını neşretmemiş olmasına rağmen olgun bir sanat sahibidir. Gelecek sayılarımız onun ve arkadaşları Oktay Rifat, Melih Cevdet, Mehmet Ali Sel'in şiirimize getirdikleri yeni havayı daha iyi belirtecekdir." [3]

İlk şeiri "Oaristys" adlanır. 1936-cı ildən sonra dörd il ərzində 38 şeiri çap olunan Orxan Vəli artıq genclik abu havasını başından çıxarmışdır. Bu ilk şeirlərini musiqinin, sənətin təsiri altında heca vəzniylə, dördlüklər formasında yazmışdır.

"Odamda", "Kurt", "Gün Doğuyor", "Eldorado", "Oaristys", "Ave Maria", "Düşüncelerimin Başucunda" kimi ilk nümunələrdə qəribçilik çəkən, qəmgin bir gəncin duyğuları dilə gətirilir. Əsas mövzusu tənhalıq, həsrət, ümidsizlik olan bu şeirlərdə romantizm abu havası da nəzərdən qaçmır.

Fransız şeirini dərindən bilən və sevən Orxan Vəli məşhur fransız şairi

[2] Asım Bezirci, "Orhan Veli-yaşamı, kişiliği, sanatı, eserleri" İstanbul 1995, səh.16
[3] Yusuf Yıldırım, "Orhan Veli Kanık ve Garipçiler" İstanbul 2004, səh 62

Rimbaudda da təsirlənmişdir. Bu ilk şeirlərində daha çox özünü büruzə verir.

Türk şeirində yenilik cığırı açan Orxan Vəli, Məlik Cövdət və Oqtay Rüfət öz yaradıcılıqlarının ilk dövrlərində sürrealizmlə maraqlanmış, onu dərindən öyrənmişlər.

Beləliklə, Orhan Vəli artıq məktəb illərindən şeirə, ədəbiyyata marağını gizlədə bilməmiş, gələcəkdə Türk poeziyasına faydalı olacağını öz şeirləri ilə sanki sübut etmişdir.

**ƏDƏBİYYAT**


1. Yıldırım Y. Orhan Veli Kanık ve Garipçiler. Toker yayınları. İstanbul: 2004
2. Bezirci A. Orhan Veli. Evrensel Basım Yayın. İstanbul: 1995
3. Bezirci A. Orhan Veli- yaşamı, kişiliği, sanatı, eserleri. İstanbul: 1995
4. Orhan V. Şairin İşi. Yapı Kredi Yayınları. İstanbul: 2003
5. Sazyek H. Garip Hareketi. Kültür Yayınları. İstanbul: 1999
6. Akın G. Şiir Üzerine Notlar, Yapı Kredi Yayınları. İstanbul: 1996
7. Türk dili. 1967. Sayı 188


## НАЧАЛО ТВОРЧЕСТВА ОСНОВАТЕЛЯ ТУРЕЦКОЙ ЛИТЕРАТУРНОЙ ШКОЛЫ «ГАРИБ» ОРХАНА ВЕЛИ


**Г.ГАСАНОВА**


**РЕЗЮМЕ**


В статье была дана короткая информация о литературной школе «Гариб», разделяется творчество основоположника указанной школы, известного поэта Орхана Вели на 4 периода и иследуются его первые произведения. В статье рассматриваются ранние стихи турецкого поэта Орхана Вели Каньк, включённые в сборник «Гарип» («Странное»), выпущенный в 1941 году совместно с Октаем Рифатом Хорозджу и Мелихом Джевдетом Андай.

Подчёркивается, что в этих стихах поэт стремился демократизировать поэзию, обращался к повседневности, к жизни и внутреннему миру простого человека.



**Ключевые слова:** Орхан Вели, литературной школы, стихотворение


## ON THE FIRST PERIOD OF THE POETIC ACTIVITIES OF ORHAN VELI, THE FOUNDER OF THE TURKISH LITERARY SCHOOL “GARIB”


**G.G.HASANOVA**


**SUMMARY**


The article is dedicated to the founder of the literary school “Garib”, prominent poetry Orhan Veli, division of his poetic activities, and the research of his first poems.

The article studies the early poems by the Turkish poet, Orhan Veli, that were included to the collection of “Garip” published in 1941. İt is indicated that, in his poems the poet intended to democratize poems by intruding to the daily life of ordinary people.



**Key words:** Orhan Veli, literary school, poem